# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 102** **QƏRAR** **Bakı şəhəri, 2 mart 2016-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda dəyişikliklər edilməsi haqqında

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 566 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784) ilə təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.2.1.4-cü yarımbənddə "təşkilatı" sözü "şirkəti" sözü ilə, "əməliyyatlardan" sözü "investisiya xidmətlərindən (əməliyyatlarından)" sözləri ilə, "təşkilat" sözü "hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

2.3.1.6.2-ci yarımbənddə "broker" sözü "investisiya şirkəti" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***